# Gənclər üçün həyat dərsi

## Mehralı Əliyev gənclərə qızıl tövsiyələri verir



**Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) Ali riyaziyyat kafedrasının dosenti Mehralı Qaçay oğlu Əliyev artıq qırx ilə yaxındır, sözügedən ali təhsil ocağında pedaqoji fəaliyyətlə məşğuldur. Bu müddət ərzində həm tələbələrinin, həm də əməkdaşların dərin hörmətini qazanıb.**

O, uzun və məhsuldar elmi-pedaqoji yolu boyunca minlərlə tələbəyə bilik verib, onların peşəkar kimi formalaşmasında əvəzsiz rol oynayıb. Mehralı müəllimin dərs üslubu tələbələrin mövzuya marağını artıran, çətin riyazi problemləri anlaşılan edən yanaşması ilə seçilir. Bu səbəbdən yetirmələri təkcə Azərbaycanda deyil, dünyanın başqa ölkələrində də fəaliyyət göstərirlər.

Mehralı Əliyev yalnız nümunəvi pedaqoq yox, həm də ədəbiyyat aşiqi, ələlxüsus da Xalq şairi Ramiz Rövşən yaradıcılığının böyük vurğunu kimi tanınır. Bəlağətli qiraəti tələbələri, dostları arasında xüsusi rəğbətlə qarşılanır. Sözə, sənətə olan bu həssas münasibət tanınmış pedaqoqun şəxsiyyətinə əlavə dərinlik qatır, onu elm adamı, zövqlü ziyalı kimi xarakterizə edir.

Dekabrın 8-də yetmiş yaşı tamam olan Mehralı müəllim həyat təcrübəsini, topladığı bilikləri və dəyərli düşüncələrini Azərbaycan gəncləri ilə paylaşmaqda davam edir. O, daim gəncliyi elmə, intellektual inkişafa, düzgün həyat seçimlərinə səsləyir, hər tələbəsinə mənəvi ata kimi dəyərli tövsiyə verməyi özünə borc bilir.

Biz də bu əlamətdar gün münasibətilə Mehralı Əliyevi səmimi-qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, elmi fəaliyyətində yeni nailiyyətlər və uzun ömür arzulayır, hələ uzun illər Azərbaycan təhsilinə xidmət göstərəcəyinə inamımızı ifadə edirik.

**Müəllimdən tələbələrinə qızıla bərabər tövsiyələr**

**Əziz gənclər!**

Çox sevdiyim və gələcəyinə inandığım tələbələr!

Çoxdandır, məni narahat edən, ürəyimi dəlib-deşən duyğularımı sizinlə bölüşmək üçün bu müraciəti özümə borc bildim.

Siz bu xalqın, dövlətin sabahısınız, bu millətin dərd-səri, problemləri sabah sizinki olacaq.

Bu vətənin, bu xalqın vətəndaşları olacaqsınız. Sizə ağıl vermək, nəsihət etmək kimi fikirlərdən çox uzağam. Amma icazə versəniz, bəzi fikirlərimi bölüşmək istəyirəm.

Biz altı yüz il Avropada hakimiyyətdə olmuş böyük Osmanlı dövləti qurucularının, Səfəvilər dövlətinin banisi, böyük sərkərdə Şah İsmayılın, Nadir şahın nəvə-nəticələriyik.

Bu dövlət başçıları düşmənə nə ilə qalib gəlirdilər? Təkcə qılınclamı? Əlbəttə, yox. Onlar hansı ərazilərdə dövlət qurublarsa, orada yaşayan xalqların adət-ənənələrini toxunulmaz elan ediblər. Hər xalqın mental xüsusiyyətlərini, eləcə də öz türk milli-mənəvi dəyərlərini qoruyub saxlayıblar. Bax, böyüklükləri, gücləri də elə bunda idi.

Deməli, hər xalq o vaxt güclüdür ki, özünün mənəvi dünyasında mental xüsusiyyətlərini həmişə rəhbər tutur.

Əlbəttə, səy göstərmək, əzmkar olmaq lazımdır. Amma bu, mənəviyyata söykənmirsə, sonu məğlubiyyətdir.

Əziz gənclər, əziz tələbələrim!

Siz böyük alim, görkəmli mühəndis ola bilərsiniz və inanıram ki, çoxunuz olacaqsınız da. Amma sizi əmin edirəm, Azərbaycanın, türkün milli-mənəvi dəyərlərindən imtina etsəniz, bu ölkənin vətəndaşı ola bilməyəcəksiniz.

Daxilinizdəki boşluğu, sizə düşmən qüvvələr əleyhinizə olan zərərli, yalançı təbliğatla dolduracaq. Sonda sizi özlərinə qul edib böyük Türk dünyasından ayıracaq, mənəviyyatsız məxluqa çevirəcəklər. Hətta çoxlu mal-dövlət verib içiboş, mənasız varlığa döndərəcəklər. Sizi soykökünüzdən ayırıb manqurtlaşdıracaqlar. Düşmən həmişə ayıqdır, gözləməkdədir, zəif halqa axtarmaqdadır. Bu halda istedadınız bizə - yeni Türk dünyasına, Azərbaycan türklərinə, sizi yetişdirən, boya-başa çatdıran vətənə düşmən kəsiləcək. Özünüz dərk etmədən bu xalqın düşməninə çevriləcəksiniz. Çünki düşüncələrinizi qarışdıracaq, şüuraltı duyğularınızı zəhərləyəcəklər. Böyük Atatürk demişkən, siz özünüzə qayıdanda böyük olursunuz. Bu sadaladıqlarımın baş verməməsi üçün milli-mənəvi dəyərlərimizə sadiq qalmalı, Azərbaycan türklərinin milli xüsusiyyətlərinə tam yiyələnməlisiniz.

Biz Azərbaycan xalqı olaraq, son iki yüz ildə ilk dəfə düşmən tapdağında olan torpaqlarımızı azad edib ölkəmizi ərazi bütövlüyünə qovuşdurduq. Əlbəttə, bunlar milli-mənəvi dəyərlərimizə sadiq olan, mental xüsusiyyətlərimizi dərindən bilən əzəmətli Ali Baş Komandanın səyi və şəhid övladlarımızın qanı ilə gerçəkləşdi. İndi bu dövlətə, xalqa siz sahib çıxmalısınız. Sizə yalvarıram, sizdən rica edirəm, yazdığım bu sətirləri qulaqardına vurmayın. Düşünün!

Yəqin, indi fikirləşirsiniz ki, bəs milli-mənəvi dəyərlərimizə necə sahib çıxaq? Mental xüsusiyyətlərimizi necə qoruyaq? Öz soy-kökümüzdən necə ayrılmayaq?

Əzizlərim! Hər vətən deyə qışqıran bu ölkəni sevmir. Bunu siz də bilirsiniz. Həbsxanalarda vətən, millət deyib qışqıran kifayət qədər vətən xaini var.

Vətəni, ananı sevmək onlara sadiq olmaq deməkdir. Hər şeyin kökündə duran "sədaqət" anlayışı sizə bu ölkənin şərəfli vətəndaşı olmağa kömək edər. Xalqımız ulu babalarımızın miras qoyub getdiyi adət-ənənələrinə sadiq olmaqla yanaşı, vətəni sevməyi, dövlətinə sadiq olmağı öz böyüklərindən, dədə-babalarından miras alıb. Bu mirası qoruyub saxlamaqla bərabər, inkişaf etdirib digər xalqlara da göstərməliyik.

Həyatımda çox xalqlar görmüşəm, hətta onlarla bir yerdə aylarla yaşamışam da. Heç bir xalqın mənəviyyatına toxunmadan sizi əmin edirəm ki, biz çox böyük xalqıq. İstedadlı və zəhmətsevərik. Lakin mənəviyyatımızı itirsək, istedadımız, zəhmətimiz bu xalqa xidmət etməyəcək. Dünyanın mal-mülkünə, zahiri parıltısına aldanmayın, mənəvi dünyanızı zənginləşdirin. Bu xalqın övladı olun. Onda hər istəyiniz olacaq və siz xoşbəxt olacaqsınız.

Sual verəcəksiniz ki, indi problemlərimiz yoxdurmu? Əlbəttə, var. Amma zamanla hamısı düzələcək. Otuz il gözləməli olsaq da, davamlı səy göstərib doğma Qarabağımızı azad etmədikmi? Bəzi problemlərimizin həlli üçün zamana ehtiyac var, əzizlərim.

Biz dünyanın ən öndə gedən xalqlarının da həyatını öyrənib, milli-mənəvi dəyərlərimizə uyğun hər müsbət amili nəzərə almalıyıq. Amma rus, alman, ingilis və b. ola bilmərik. Çünki biz türkük, azərbaycanlıyıq.

Hər xalqa hörmət etməklə yanaşı, azərbaycanlı olduğumuzu unutmamalıyıq. Yazdığım çox qısa fikirləri yekunlaşdırsaq, sizə tövsiyəm bu ola bilər:

Biz çox oxumalıyıq. Müqəddəs islam dinimiz də oxumağı, namaz və orucdan daha üstün görür.

İmam Əli buyurur ki: "Hər kim mənə birce hərf öyrətsə, ona qul olaram".

Bizim xalqımızın dahiləri, atababalarımız da bizə çox, çox, çox oxumağı, öyrənməyi məsləhət görüblər. Yalnız bu yolla milli-mənəvi dəyərlərimizə sahib çıxa, mədəni xüsusiyyətlərimizi qoruyub saxlaya bilərik. Kitaba qayıdaq. Dahilərimizi, müasir ədiblərimizi, rəssamlarımızı, incəsənət adamlarımızı araşdıraq. Bu, mənəvi borcumuzdur.

Sizə ilk tövsiyəm hansı sənəti seçmisinizsə, onu dərindən öyrənməyinizdir. Öz sənətini yaxşı bilməyən yaxşı vətənpərvər ola bilmir. Azərbaycanın folklorunu, dastanlarını, aşıq və nəğmə sənətini öyrənin. Klassiklərimizdən Nizamini, Füzulini, Seyid Əzim Şirvanini, Mirzə Ələkbər Sabiri, Nəsimini və b. oxuyun. Səthi yox, sözbəsöz öyrənin. Bu əsərlər sizə ədəb-ərkan aşılayacaq, sevməyi öyrədəcək, vətənə, xalqa sadiq olmağı təlqin edəcək.

*Onların davamçıları olan müasir klassiklərimizdən:*

a) Alim Qasımovun muğam sənətinə baş vurun, kədərlənməkdən qorxmayın. Kədər hissi insanı böyük edir. Bilirsiniz ki, həyat təkcə sevincdən ibarət deyil.

b) Aşıq musiqilərimizə çox qulaq asın. Azərbaycan muğamı, aşıq nəğməsi ilə qardaşdır.

c) Böyük şairimiz Hüseyn Cavidin əsərlərini, xüsusilə "İblis" poemasını, yazıçılarımız İsa Hüseynovun (Muğanna) əsərlərini, xüsusilə "İdeal" və "Tütək səsi" romanlarını, Mövlud Süleymanlının "Köç", Abbas Pənahinin "Gizli zindan", Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz", Mirzə İbrahimovun "Gələcək gün", "Pərvanə", Əlisa Nicatın "Qızılbaşlar" romanlarını, böyük şairimiz Səməd Vurğunun "Vaqif" pyesini və digərlərini. Xalq şairimiz Bəxtiyar Vahabzadənin "Gülüstan" və "Muğam" poemalarını oxuyun.

d) Müasir şairlərdən Ramiz Rövşənin çox oxunan, önəmli "Nəfəs" kitabını, Rüstəm Behrudinin şeirlərini, xüsusilə "Salam dar ağacı" əsərini mütaliə edin.

e) Xarici yazıçılardan Lev Tolstoyun "Anna Karenina", Fyodor Dostoyevskinin "Cinayət və cəza", Viktor Hüqonun "Səfillər", Teodor Drayzerin "Kerri bacı" romanlarını, qırğız türklərinin məşhur yazıçısı Çingiz Aytmatovun bütün əsərlərini, xüsusilə Əlvida, Gülsarı", "Əsrə bərabər gün"ü oxuyun. Böyük türk yazıçıları Rəşad Nuri Güntəkin, Əziz Nesinin əsərlərini mütaliə edin.

Xülasə, bu siyahı oxumalı olduğunuz əsərlərin çox az qismini əhatə edir. Xahiş edirəm, göz gəzdirib keçməyin, oxuyub düşünün, düşünüb oxuyun.

Milli-mənəvi dəyərlərə sahib olmağın, mental türk adət və ənənələrinə sadiq qalmağın başqa yolu yoxdur. Oxuyun, oxuyun, öyrənin. Ulu babalarımızdan miras qalan əxlaqlı olmağın, anamızı və vətənimizi sevməyi, rəhmli olmağı, yaxşı vətəndaş olmağı, sevməyin nə olduğunu öyrənin. Yəqin, bu kiçik yazını oxuyarkən sizdə xeyli sual yaranacaq. Mən yanınızdayam. Düşüncələrimin hamısını yaza bilməsəm də, tövsiyələrimin bir qismini yazdım.

Yazıda razılaşmadığınız fikirlər də ola bilər. Bu, təbiidir. İnsan bəzən ürəyindəkiləri olduğu kimi ifadə edə bilmir. Buna görə sizdən üzr istəyirəm.

Böyük şairimiz Ramiz Rövşən demişkən:

Sözlər ürəyimdən əlimə yetdi,
bir azca soluxdu-soldu, nə olar.
Bir azca şaxlığı-şuxluğu itdi,
heç kəs qınamasın, yoldu, nə olar

Dərin hörmətlə, sizi çox sevən

**Mehralı Əliyev,**
**AzMİU Ali riyaziyyat kafedrasının dosenti, müəllim**
**4 noyabr 2025-ci il**